# 1 oktyabr–Beynəlxalq Ahıllar Günüdür

1990-cı il dekabrın 14-də BMT-nin Baş Assambleyası qətnamə qəbul edərək oktyabrın 1-nin Beynəlxalq Ahıllar Günü kimi qeyd olunmasını qərara alıb. Bu günü əvvəlcə Avropada, sonra Amerikada, ötən əsrin 90-cı illərinin axırlarında isə artıq bütün dünyada qeyd etməyə başlayıblar. Həmin günün təsis edilməsinin başlıca məqsədi ailə və icmaların, eləcə də cəmiyyətin həyatında ahıl və yaşlıların iştirakını fəallaşdırmaqdan, onların hüquq və ehtiyaclarını diqqətə çatdırmaqdır.

Ölkəmizdə ahıllar dövlət qayğısı ilə hərtərəfli əhatə olunublar. Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunda qeydiyyatda olan əmək pensiyaçılarının 329,3 minə yaxını ahıl vətəndaşlardır. Onların 201,8 mini qadın, 127,4 min nəfəri kişidir. Ahıl pensiyaçıların 208,6 min nəfəri 70-80, 110,9 min nəfəri 80-90 yaşlarında, 9,7 min nəfəri isə yaşı 90-dan yuxarı olan vətəndaşlardır. Ümumilikdə hazırda ahıl vətəndaşların 87,1 faizi əmək pensiyası ilə təmin olunur. Əmək pensiyası hüququ olmayan ahıl şəxslərə isə yaşa görə aylıq sosial müavinət ödənilir.

Ahıl vətəndaşların bir qismini təşkil edən İkinci Dünya müharibəsi iştirakçılarına ödənilən orta aylıq pensiyanın məbləği isə 356 manat təşkil edir. Aylıq əmək pensiyası ilə yanaşı, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Fərmanı ilə 2008-ci il sentyabrın 1-dən digər müharibə əlilləri kimi, İkinci Dünya müharibəsi əlillərinə də Azərbaycan Prezidentinin aylıq təqaüdü ödənilir. Həmin təqaüdlərin məbləği ötən dövrdə orta hesabla iki dəfədən çox artırılıb. Bir zamanlar ölkəmizin ictimai-siyasi. Iqtisadi həyatında fəal rol oynayan bu günkü ahıl insanların bir çoxu bu gün də gənc nəslin vətənə məhəbbət ruhunda tərbiyə olunmasında iştirak edir. Onların həyat yolu gənc nəslə nümunədir. Buna görə də yaşlı nəslə diqqət və qayğı təkcə dövlətin deyil, hər bir vətəndaşın vəzifəsidir.

«Qəbələ»

# Azərbaycanın multikultural qəsəbəsi

***Azərbaycanda əsrlərdir müxtəlif xalqların nümayəndələri dostluq-qardaşlıq şəraitində yaşayırlar. Alban mədəniyyətinin daşıyıcılarından biri olan udilər də bu sıraya daxildir.***

***Ölkəmiz etnik rəngarəngliyinə görə muzeyi xatırladır. Bu, dünyada çox az sayda qalan xalqların böyük əksəriyyətinin Azərbaycanda yaşaması ilə bağlıdır. Onlar əsrlər boyu özlərinin etnik xüsusiyyətlərini, dini inanclarını, adət-ənənələrini qoruyub saxlayıb və bu günümüzədək yaşadıblar.***

Zəngin tarixə malik azsaylı xalqlardan biri də udilərdir. Bu xalq hazırda kompakt şəkildə Qəbələnin Nic qəsəbəsində yaşayır. Ölkə üzrə ümumi sayları 4500 nəfərə yaxındır. Nicdə isə 3304 udin var. Dünyada onlar 10 mindən artıq olsalar da başqa xalqların dilini, adətlərini, mədəniyyətini qəbul edərək assimilyasiya uğrayıblar. Tolerant mühitin hökm sürdüyü Azərbaycada isə bu xalq öz orijinallağını qoruyub saxlayıb.

Nicdə udilərin hər bir şəraiti var. Qəsəbədə "Orayin" Udi Mədəniyyət Mərkəzi fəaliyyət göstərir. Xarici ölkələrdə öz mədəniyyətini, dilini, adət-ənənələrini qoruya bilməyən udilər doğma vətənləri Azərbaycanda hər cür qayğı ilə əhatələniblər.



Qəsəbə məktəblərinin ibtidai siniflərində uşaqlara udi dili tədris olunur, onlar öz ana dillərini sevə-sevə öyrənirlər.

Hazırda Nic qəsəbəsində 3 kilsə, iki məscid var. "Cotari" udi xristian kilsəsi tarixi baxımdan ərazideki xristian abidələrinin ən əhəmiyyətlisidir. Tikintisində Qəbələnin dağlarından gətirilən daşlardan istifadə olunub. Kilsə 2002-ci ildə əsaslı bərpa olunub. Hazırda məbəddən udilər dini ayinləri yerinə yetirmək üçün istifadə edirlər.

"Qəbələ"

# Qiymətli hədiyyələr təqdim olunub

***Sentyabrın 12-dən 14-dək Qəbələdə Fövqəladə Hallar Nazirliyinin qurumları arasında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş səmti müəyyənetmə üzrə keçirilən çempionata yekun vurulub.***



Yarış Fövqəladə Hallar Nazirliyi İdman-sağlamlıq klubu və FHN İşçilərinin Həmkarlar İttifaqının birgə təşkilatçılığı ilə keçirilib.

Yarışın bağlanış mərasimində nazirliyin idman-sağlamlıq klubunun rəisi, polkovnik Füzuli Musayev, FHN İşçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov çıxış edərək ölkəmizdə keçirilən və böyük marağa səbəb olan bu yarışın əhəmiyyətindən, idmanın inkişafı istiqamətində görülən işlərdən, FHN əməkdaşlarının uğurlarından danışıblar. Qeyd olunub ki, FHN-in qurumları arasında keçirilən səmti müəyyənetmə idman növü üzrə çempionatda nazirliyin müxtəlif qurumlarını təmsil edən 20 komandanın tərkibində 80-ə yaxın idmançı iştirak edib. İki gün davam edən yarışın final mərhələsində nazirliyin qurumlarının əməkdaşları komanda və şəxsi birincilik üzrə öz bacarıqlarını nümayiş etdiriblər.

Yarışda FHN-in Mülki Müdafiə Qoşunlarının komandası birinci, Xüsusi Riskli Xilasetmə Xidmətinin komandası ikinci, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin komandası üçüncü yeri tutub. Qızlar arasında şəxsi yarışlarda Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin əməkdaşı Sevda Verdiyeva birinci, Xüsusi Riskli Xilasetmə Xidmətinin əməkdaşı Sima Səfərova ikinci, Mərkəzi Aparatın əməkdaşı Xatirə Şahverdi üçüncü yerə sahib olub. Kişilərin yarışında isə FHN-in Akademiyasının kursantı Özcan Kərimov birinci, Şimal-Qərb Regional Mərkəzinin əməkdaşı Nurlan Əhmədov ikinci, Cənub Regional Mərkəzinin əməkdaşı Ehtiram Məmmədov üçüncü yerə çıxıb.

Sonda qaliblərə medal, diplom, kubok və qiymətli hədiyyələr təqdim olunub.

# Milli Musiqi Günü qeyd olunub



1995-ci ildə dahi bəstəkarımız Üzeyir Hacıbəylinin 110 illik yubileyi ərəfəsində ümummilli lider Heydər Əliyevin imzaladığı sərəncama əsasən, hər ilin 18 sentyabr tarixi Milli Musiqi Günü kimi qeyd olunur.

Sentyabrın 18-də Milli Musiqi Günü münasibətilə Qəbələ İncəsənət Məktəbində ənənəvi bayram konserti təşkil olunub. Konsertdə Üzeyir Hacıbəylinin və digər Azərbaycan bəstəkarlarının əsərləri səsləndirilib.

Musiqi əsərlərini böyük şövqlə ifa edən məktəbin şagirdləri klassik musiqimizlə yanaşı, Azərbaycan muğamının da nümunələrini tamaşaçılara təqdim ediblər.

Tamaşaçıların zövqünü oxşayan və onlara mənəvi qida verən Milli Musiqi Günü hər bir kəsdə xoş ovqat yaradıb.

**Süsən RÜSTƏMLİ,**
**məktəbin şagirdi.**

# Toponimlər, araşdırmalar və faktlar

***Bu məqaləni ərsəyə gətirməyə məni sövq edən əsas amillərdən biri yerli ictimaiyyətin bir qismi tərəfindən yaşadığım Qəbələ rayonunun Nic qəsəbə inzibati ərazisinin tərkibində yerləşən Abdalı toponiminin düzgün anlaşılmaması səbəbindən həmin sözün müasir türk dilində olan "aptal" yəni "axmaq" mənasında qavranılmasıdır.***

Əslində isə tarixə nəzər saldıqda Alban tarixcisi Movses Kalankatlı öz əsərlərində Albaniyada yaşayan qədim abdal tayfasının adını çəkir.

Heptallar (Abdallar) Makedoniyalı İsgəndərin dövründə (e.ə IV yüzillikdə) bu ərazilərə köçürülmüşlər. Abdal tayfasının Qafqaz Albaniyasında eradan əvvəl yaşaması, ehtimal olunur.

Abdal tayfasının Başqırd, Qaraqalpaq muxtar respublikalarında, Qazaxıstan və Türkmənistan respublikalarında olması da məlum faktdır. Suriya tarixçisi Zaxari Ritor Şimali Qafqazda Hun əyalətində yaşayan tayfalar arasında türkdilli abdal tayfasının da adını çəkmişdir.



Mənbələrdə heftal, heptal və eftal kimi qeyd edilən etnonim abdal sözünün müxtəlif fonetik formalarıdır. Abdal Ulya komponenti ərəb dilində yuxarı və uca mənasını daşıyır. Digər tərəfdən isə tarixə nəzər saldıqda çox aydın sürətdə məlum olur ki , Abdal adı ilə bağlı Azərbaycanın digər ərazilərində və hətta İrəvanda da yer adları mövcud olmuşdur. Türkiyə və Gürcüstan respublikalarında da Abdal yer adları hələ qədim zamanlardan mövcuddur. Bir çox respublikaların toponimlərində də abdal adına tez-tez rast gəlinir.

Ümumiyyətlə Abdal qədim türk tayfalarından birinin adı olmaqla "ağ hun" mənasını əks etdirir.

Bu yaxınlarda Kanada vətəndaşı olan dostum Kristoff Azərbaycana gələrkən qonağım olmuşdur. Biz onunla Nic qəsəbəsinin inzibati ərazisində yerləşən Abdalının təbiətini seyr edirdik. Mən ona Qafqaz Albaniyası və Abdalı haqqında danışarkən Kristof mənə bildirdi ki, bəhs etdiyim mövzu üzrə onun geniş məlumatı vardır.

Qeyd edim ki, dostum Kristoff tarixçidir.

Xatırladım ki, daşlı qala, yaloylu təpə, qalaplüz, qızıl qaya və beyrək bulağı da Abdalının tərkibində və ona bitişik ərazilərdə yerləşən tarixi əhəmiyyətli abidələr və yer adlarıdır.

Abdalının cənub, cənub-şərq və qərb ərazilərində yerləşən qədim yeraltı tunellər, qədim qəbirlər, dağlıq ərazilərindən keçən, yeri itməkdə olan qədim tarixə malik cığırlar və yollar, digər tərəfdən isə inzibati ərazinin cənub-şərq hissəsindən müəyyən ərazilərlə rayonun Çuxur Qəbələ kəndinin tarixi əhəmiyyətli ərazilərinə birləşməsi Abdalının geniş mənada tarixi əhəmiyyət kəsb etdiyinin maddi təsdiqidir.

Abdalı haqqında bu və digər formada tarixi faktlar olduqca geniş, zəngin və qürurvericidir. Odur ki, biz çalışmalıyıq ki, gözəl Azərbaycanımızın dilbər güşələrinə aid toponimləri xüsusi diqqətlə öyrənək və hörmətlə yanaşaq.

**Elnur MAHMUDOV.**